# Qərbi Azərbaycan İcmasında beynəlxalq konfransın iştirakçıları ilə görüşlər olub

**Dekabrın 5-də Qərbi Azərbaycana həsr olunmuş "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda beynəlxalq konfransa qatılmaq üçün Azərbaycana səfər etmiş iştirakçılarla Qərbi Azərbaycan İcmasında görüşlər baş tutub.**



Qərbi Azərbaycan İcmasından AZƏRTAC-a bildirilib ki, ilk görüşdə icmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, icma sədrinin müavini, deputat Ramil Həsən, Xaricdə yaşayan Qərbi Azərbaycan İcmasının üzvləri - Almaniya Azərbaycanlıları Alyansının rəhbəri, Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, tibb elmləri doktoru, dosent Nuran Abdullayev, azərbaycanlı hüquqşünas, politoloq, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, "Qərbi Azərbaycana Qayıdış" təşkilatının rəhbəri Zaur Sadıqbəyli, Şimali Karolina-Qrinsboro Universitetinin Sülh və Münaqişələrin Tədqiqatları Departamentinin dosenti və həmsədri Əli Əsgərov iştirak ediblər.

İcma sədri Əziz Ələkbərli Qərbi Azərbaycana qayıdış istiqamətində xaricdə yaşayan soydaşlarımızın məqsədyönlü fəaliyyətinin böyük önəm daşıdığını bildirib. Sədr qeyd edib ki, bununla bağlı xaricdə yaşayan qərbi azərbaycanlıların üzərinə mühüm vəzifə düşür.

İcma sədrinin müavini Ramil Həsən deportasiyalar nəticəsində öz ata-baba yurdlarından çıxarılan soydaşlarımızın bu insanlıq əleyhinə cinayət nəticəsində dünyanın müxtəlif ölkələrinə də səpələndiyini, bütün bu halların deportasiyaların miqyasının nə qədər geniş olduğunu deməyə əsas verdiyini diqqətə çatdırıb.

Xaricdə yaşayan soydaşlarımız Nuran Abdullayev, Əli Əsgərov və Zaur Sadıqbəyli icma rəhbərliyinin səsləndirdikləri fikirlərə qoşularaq ata-baba yurdlarına qayıdışla bağlı xaricdəki soydaşlarımızın təşkilatlanmasının önəmini vurğulayıblar.

Qeyd edək ki, konfransda Azərbaycandan və 30-dan artıq ölkədən 100-dən çox millət vəkili, ekspert və digər tanınmış şəxslər iştirak edəcəklər.

Azərbaycan.- 2023.- 5 dekabr, № 265.- S.8.